NATO
OTAN

# NATO RIQA
## SAMMITINDƏN SONRA

# Əfqanıstanda üstünlük, İmkanların inkişaf etdirilməsi, Əməkdaşlığın gücləndirilməsi

28-29 noyabr 2006-cı il tarixində keçirilmiş Riqa Sammiti NATO üçün əhəmiyyətli hadisə idi. NATO-ya üzv olan 26 ölkənin dövlət və hökumət başçıları Soyuq Müharibənin bitməsindən sonra səkkizinci dəfə və yeni NATO üzvlərinin ən son nümayəndələrindən birinin paytaxtında birinci dəfə görüşdülər. NATO Baş Katibi Yaap de Hoop Schefferin qeyd etdiyi kimi, “Avropanın yaxşılığa doğru nə qədər dəyişdiyini bu Sammitin demokratik və müstəqil olan Latviyada keçirilməsi faktından başqa heç nə daha aydın göstərə bilməzdi”.

Latviyanın paytaxtında toplanmış müttəfiqlər NATO-nun Əfqanıstanda apardığı hərbi missiyasına dair öhdəliklərini gücləndirdilər vəbeynəlxalq ictimaiyyəti bu işə daha geniş səviyyədə qoşulmağa çağırdılar. Onlar gələcəkdə NATO-nun hərbi imkanlarını daha da inkişaf etdirmək üçün tədbirlər gördülər və tərəfdaşlarla əməkdaşlığı möhkəmlətmək və genişləndirmək üçün irəli sürülən təşəbbüsləri təsdiq etdilər. Bununla, Alyans XXI əsrin yeni təhlükəsizlik təhdidlərinə cavab vermək üçün uyğunlaşmağa qadir olduğunu göstərdi.

Riqada, NATO liderləri növbəti 10 il və daha çox müddət üçün Alyansın imkanları ilə bağlı məsələlər, planlaşdırma qaydaları və məlumat mübadiləsi üçün prioritet məsələləri əks etdirən əsas proqram sənədi olan Müfəssəl Siyasi Rəhbər sənədini təsdiq etdilər. Alyansın 1999-cu il Strateji konsepsiyasını dəstəkləyən bu sənəddə göstərilir ki, gələcəkdə Alyans üçün olan əsas təhlükələr beynəlxalq terrorizm, kütləvi qırğın silahları və onların çatdırma sistemlərinin yayılması, həmçinin tənəzzülə uğramış və tənəzzzül etməkdə olan ölkələr tərəfindən sabitliyin pozulması, regional böhranlar, yeni texnologiyadan sui-istifadə, həyati əhəmiyyətli resurslar axınının pozulması məsələləridir.

Bunların fövqündə Müfəssəl Siyasi Rəhbər sənədində Alyansın yerinə yetirməli olduğu əməliyyat növləri və ona lazım olacaq imkanların növləri şərh olunur: NATO qüvvələri tarazlaşdırılmış, mütəhərrik və çevik olmalı və aşağı və yuxarı gərginlik dərəcəsinə malik olan bütün növ tapşırıqları yerinə yetirə bilməlidir. Təlimatda həmçinin NATO-nun çoxlu sayda kiçik miqyaslı əməliyyatlar keçirməli olacağı ehtimalı da vurğulanır.

Riqa Sammiti zamanı Alyans üç qitə üzrə altı hərbi tapşırıq və əməliyyatlara cəlb olunmuşdur: Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri; Kosovo Qüvvələri; Aralıq dənizində "Fəal Səylər" əməliyyatı; NATO qərargahı-Sarayevo; NATO-nun İraqdakı Təlim Missiyası; Sudanda Afrika Birliyi Missiyası. Görüş zamanı müttəfiq dövlətlərin rəhbərləri bu hərbi tapşırıqlarda xidmət göstərmiş əsgərlərə və hal-hazırda bu tapşırıqlarda iştirak edən 50 000-dən çox kişi və qadınlara minnətdarlıq bildirmişlər. Həmçinin bu tapşırıqlarda ölən və yaralananların xatirəsi bir anlıq sükutla yad edilmişdir.

## > Əfqanıstan və Kosovoda aparılan əməliyyatlara davamlı töhfə

Riqa Sammiti 28 noyabr tarixində NATO-nun əsas vəzifəsi olan Əfqanıstanda sülhün və sabitliyin bərqərar olunmasına töhfə verilməsinə həsr olunmuş işgüzar nahar yeməyi ilə işinə başladı. Müttəfiq ölkələrin liderləri bu məqsəd üçün həmrəyliklərini və uzun müddətli öhdəliklərini yenidən təsdiq etdilər və NATO-nun başçılıq etdiyi Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin effektivliyini gələcəkdə daha da gücləndirmək üçün qüvvələrin necə, nə vaxt və harada istifadə ediləcəklərinə dair milli məhdudiyyətləri aradan qaldırmağa razılaşdılar. NATO liderləri həmçinin təsdiq etdilər ki, qalan məhdudiyyətlərə baxmayaraq, fövqəladə hallarda hər bir müttəfiq yardım tələb edən ölkənin köməyinə gələcək. Bir çox ölkələr qırıcı təyyarələr, vertolyotlar, piyada qoşun və Əfqanıstan Milli Ordusuna rəhbərlik etmək üçün təlim komandaları təmin etmək kimi əlavə öhdəliklər də götürdülər.

Əfqanıstanın uzun müddətli inkişafının və sabitliyinin vacibliyini nəzərə alaraq NATO liderləri daha geniş beynəlxalq iştiraka və siyasi, hərbi və iqtisadi elementlər daxil olmaqla hərtərəfli yanaşmaya çağırdılar. Sammitin bəyannaməsində deyildiyi kimi “Əfqanıstanda inkişaf olmadan təhlükəsizlik və təhlükəsizlik olmadan inkişaf ola bilməz”. NATO liderləri mühüm strateji məsələləri müzakirəsi və razılaşdırılması üçün əsas maraqlı tərəflərdən ibarət Əlaqə Qrupu yaratmağa dair təklifləri müsbət qarşıladılar. Baş Katibə bu təklifi işləyib hazırlamaq həvalə olundu.

Liderlər həmçinin, NATO-nun başçılıq etdiyi Kosovo Qüvvələrini müzakirə etdilər və Alyansın Kosovonun statusuna dair nizamnamənin təhlükəsizlik şərtlərinin yerinə yetirilməsində ona aid rolu oynamağa hazır olduğunu təsdiqlədilər. NATO liderləri Əfqanıstanda olduğu kimi,

Kosovoda da aparılan əməliyyatların uğurla tamamlanmasının birgə səylərdən asılı olduğunu bildirdilər. Buna uyğun olaraq, idarəçilik yaratmaq və islahatlara dəstək vermək məqsədilə NATO-nun təhlükəsiz mühit təmin etmək üzrə fəaliyyəti BMT-in, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və Avropa Birliyinin fəaliyyəti ilə əlaqələndirilməkdə davam edəcəkdir.

## > Tam Əməliyyat İmkanlarına Sahib NATO Cavab Qüvvələri

Müttəfiqlərin rəhbərləri Riqa Sammitində elan etdilər ki, NATO Cavab Qüvvələri (NCQ) tam əməliyyat imkanlarına nail olmuşdur. Texniki cəhətdən mükəmməl olan və quru, hava, dəniz və xüsusi qüvvələrdən ibarət olan bu qüvvələri Alyans lazım olan yerə tez yerləşdirə bilər. Bu qüvvələr bütün dünya üzrə evakuasiya, fəlakətin nəticələrinin aradan qaldırılması, terrorizmə qarşı əməliyyatlar və daha geniş qüvvələrin önündə getmək imkanları daxil olmaqla bütün növ əməliyyatlar həyata keçirməyə qadirdir. Bu yardım qüvvələrinə 25 000-ə qədər əsgər daxildir, onlar xəbərdarlıqdan 5 gün sonra yerləşə və 30 gün davam edən əməliyyatlara və yenidən təchiz olunarsa daha çox davam edən əməliyyatlara tab gətirə bilirlər.

Baş Katib NCQ-in tam əməliyyat imkanlarına nail olmasını Avro-Atlantik birliyinə misilsiz imkanlar verməsinə görə “böyük nailiyyət” kimi dəyərləndirmişdir. NATO liderləri Riqada NCQ-ın fövqəladə çağırışla yerləşmələrini ümumi maliyyələşdirmək haqda razılığa gəldilər və bu razılaşma ölkələrə qüvvələrin gələcək növbələşməsində iştirak etməsi üçün stimul verəcək.

Razılaşmaya xüsusilə Baş Katibin sözlərinə görə “ən bahalı sahə” olan hava daşınmaları daxildir. Sammit müddətində Riqa hava limanında Boeing C-17 təyyarəsi nümayiş etdirildi. On dörd NATO dövləti və İsveç birlikdə NATO-un Strateji “Hava Körpüsü” İmkanlarına cavab verən 3 və ya 4 ədəd C-17 təyyarəsini almağı planlaşdırır. Bu Rusiya və Ukrayna istehsalı olan *Antonov* An-124 hava daşıyıcılarından istifadə edərək artıq fəaliyyət göstərən Strateji “Hava Körpüsü” Aralıq Həllini tamamlayacaq. Digər təşəbbüs gələcəkdə A400M hava daşıyıcısının dəstəyinin əlaqələndirilməsidir.

NATO Cavab Qüvvələri və Alyans tərəfindən yerləşdirilən digər qüvvələr gələcəkdə NATO-nun Fəal Qatlı Platforma üzrə Ballistik Raket Müdafiə sistemi ilə qorunacaq. 75 milyon Avro dəyərində olan sistemin işlənməsi və inteqrasiyası üzrə müqavilə Riqada NATO və proqram üzrə işləyən sənaye komandasının aparıcı qüvvəsi olan Elmi Tətbiqlər üzrə Beynəlxalq Korporasiya (SAIC) arasında imzalanıb.
Bu NATO-un platforma üzrə raket müdafiə sistemini 2010-cu ildə ilkin əməliyyat imkanları üçün lazımi səviyyədə saxlayır.

Riqada NATO liderləri, birgə təlimləri artırmaq və inkişaf etdirmək, avadanlığı təkmilləşdirmək, qarşılıqlı uyğunluğu möhkəmlətmək üçün xüsusi əməliyyat qüvvələrinin transformasiyası təşəbbüsünü irəli sürüblər. Müttəfiqlər həmçinin, havadan yerin müşahidəsi, maddi-texniki təchizat və kəşfiyyat məlumatının mübadiləsi daxil olmaqla müasir əməliyyatlar üçün vacib olan bir çox sahələrdə gələcəkdə görüləcək işlər üzrə göstərişlər vermişlər. NATO-nun bu və digər geniş fəaliyyətlərini əks etdirən materiallar Sammit zamanı keçirilən Transformasiya Sərgisində nümayiş etdirilib.

Transformasiya maliyyə vəsaiti tələb edir. Riqa Sammiti Bəyanatı Müttəfiqlərin NATO-nun vəzifələrini yerinə yetirməsi üçün vacib olan ehtiyatları fərdi və kollektiv surətdə təmin etmələrini davam etdirdiklərini bildirən öhdəliyi təsdiq edib.

Onlar buna görə də müdafiə xərcləri azalmaqda olan üzv ölkələrə bu xərcləri həqiqi şərtlər altında artırmaq üçün müraciət etdilər.

## > Yeni Tərəfdaşların qəbul edilməsi

Riqada, NATO liderləri daha 3 ölkəni: Bosniya və Herseqovina, Monteneqro və Serbiya, Sülh naminə Tərəfdaşlıq və Avroatlantika Tərəfdaşlıq Şurasına qoşulmaq üçün dəvət etməyə razılaşdılar. Baş Katib keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalı ilə tam əməkdaşlığın vacibliyini vurğulayaraq qeyd etdi ki, Sülh naminə Tərəfdaşlıqda iştirak bu ölkələrə “Avroatlantika ailəsinə daha tam şəkildə” daxil olmağa yardımçı olacaq.

NATO liderləri Üzvlük Fəaliyyət Planı ölkələri olan Albaniya, Xorvatiya və keçmiş Yuqoslaviya Respublikası olan Makedoniyaya* 2008-ci ildə NATO-nun növbəti Sammitində Alyansın “NATO-un fəaliyyət standartlarına cavab verən və Avro-Atlantik təhlükəsizlik və sabitliyinə töhfə verə biləcək” ölkələrə üzvlüyə dəvət ünvanlamaq niyyəti barədə Baş Katibin sözü ilə desək “aydın işarə” verdilər.

Türkiyə Makedoniya Respublikasını konstitusiya adı ilə tanıyır. Müttəfiq ölkələrin liderlər Riqada NATO-nun tərəfdaşlıq çərçivələrinin siyasi və praktiki potensialını və onun Əlaqə Ölkələri olan Avstraliya, Yeni Zelandiya və Yaponiya ilə münasibətlərini tam şəkildə inkişaf etdirmək üçün göstərişlər verdilər. Bura, Aralıq Dənizi Dialoqu, İstanbul Əməkdaşlıq Təşəbbüsü, həmçinin Əlaqə Ölkələri kimi yeni tərəfdaşlar üçün daha, mərkəzləşmiş məsləhətləşmələrin və daha uyğun görüş formatlarının hazırlanmsı və mövcud tərəfdaşlıq alətlərinin bu yeni tərəfdaşlara təqdim edilməsi daxildir.

Riqada Müttəfiq liderləri Aralıq Dənizi Dialoquvə İstanbul ƏməkdaşlıqTəşəbbüsü tərəfdaşlarının hərbiçilərinə təlimdə yardım etmək üçün NATO Təlim Əməkdaşlıq Təşəbbüsünü irəlisürdülər. Bu yardım mərhələli surətdə həyata keçiriləcək, əvvəlcə NATO-nun mövcud təlim və tədris proqramlarında və tərəfdaşlıq mexanizmlərində iştirak genişlənəcək və Romadakı NATO Müdafiə Kollecində Orta Şərq fakültəsi yaradılacaqdır. İkinci mərhələdə isə NATO Orta Şərqdə təlim bazasının yaradılmasına dəstək verə bilər.

Nəhayət, Riqa Sammiti həm də Gürcüstanın üzvlüyə olan istəyi ilə bağlı İntensiv Dialoqun irəli sürülməsini alqışlamaq üçün Alyans liderlərinə imkan yaratmış oldu. Onlar həmçinin NATO-Ukrayna Fərqli Tərəfdaşlığını və onun İntensiv Dialoq çərçivəsində əldə etdiyi irəliləyişin vacibliyini vurğuladılar. Müttəfiq ölkələr NATO-Rusiya tərəfdaşlığının daha da dərinləşdirilməsində və NATO-Rusiya Şurasının bütün potensialından istifadə edilməsində qətiyyətli olduqlarını vurğuladılar. Onlar həmçinin, NATO və Avropa Birliyi arasında daha dərin və güclü əməkdaşlığa çağırdılar. Baş Katib Əfqanıstan və Kosovoya "bu əməkdaşlığın həqiqətən də çox vacib olduğu iki yer" kimi istinad etdi.

Latviyada NATO liderləri Şimali Amerika və Avropa arasında zəruri əlaqələrin olduğunu təkrarən təsdiqlədilər və Alyansın transformasiyasının davam etdirilməsi üçün töhfələrini xüsusi olaraq vurğuladılar. Sammit bəyanatı belə bir nəticəyə gəlir: "Bizim birlikdə qəbul etdiyimiz qərarlar, istiqamətləndirdiyimiz işlərlə birgə onu göstərir ki, Alyans həyata keçirdiyi əməliyyatları, transformasiya edilmiş müdafiə imkanları və Avroatlantika məkanı və ondan kənarda yerləşən ölkələrlə sıx əməkdaşlığı, həmçinin davamlı daxili islahatları vasitəsilə XXI əsrin təhlükəsizlik mühitinə uyğunlaşır. Bu səylər bizim Əfqanıstandakı missiyamızı və Alyansın gələcək təhdidlərə cavab vermək qabiliyyətini gücləndirəcəkdir. Genişlənmə prosesi daxil olmaqla, NATO-nun davam etməkdə olan

transformasiyasına növbəti təlimatların verilməsi və əldə olunmuş nailiyyətlərin qiymətləndirilməsi üçün 2008-cı ilin yazında yenidən görüşəcəyik”.

* Türkiyə Makedoniya Respublikasını konstitusiya adı ilə tanıyır.

**NATO Public Diplomacy Division**
1110 Brussels – Belgium
Website: www.nato.int
Email: natodoc@hq.nato.int

**Division Diplomatie publique de l’OTAN**
1110 Bruxelles – Belgique
Site web : www.otan.nato.int
Courriel : otandoc@hq.nato.int



© NATO/OTAN 2006

NATORIGAZE1206